

## HƏYAT VƏ FƏALİYYƏTİ

Buludxan Xəlilov 1966-cı il iyulun 25-də Qərbi Azərbaycanda Amasiya rayonunun Ellərkənd kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil almışdır (1983-1990). 1985-1987-ci illərdə Uzaq Şərqdə hərbi xidməti borcunu yerinə yetirmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili kafedrasında laborant kimi başlamışdır. 1992-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1994-cü ilin mart ayından müsabiqə yolu ilə Müasir Azərbaycan dili kafedrasında müəllim, 1996-cı ilin may ayından dosent, 2001-ci ilin iyul ayından professor və-zifəsində çalışıb. Xəlilov 2001-ci ildən 2011-ci ilə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində yeni yaradılmış Dədə Qorqud elmi-tədqiqat la-bo-ratoriyasına rəhbərlik etmişdir. 2006-cı ildə Filologiya fakültəsinin dekanı seçilmiş, 2011-ci ildə yenidən dekan vəzifəsinə təyin olunmuşdur. 2018-ci ilin dekabr ayından Müasir Azərbaycan dili kafedrasının müdiri vəzifəsində çalışmışdır.

B.Xəlilov 2021-ci il sentyabrın 27-də uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat etmişdir.

Ailəli idi, iki övladı var.

### Elmi və ictimai fəaliyyəti

Buludxan Xəlilov "Filologiya məsələlərinə dair tematik toplu"nun redaktoru idi. Müasir ədəbi-tənqidi fikrin, ədəbi irsin araşdırılmasında öz dəst-xətti ilə seçilir. M.F.Körpülünün "Azəri" əsərini transliterasiya edib ön söz və şərhlərlə çap etdirmişdir (2000). Ədəbi dilin tədqiqinə dair bir sıra monoqrafik əsərin müəllifidir. XX əsrin 90-cı illərindən dövri mətbuatda elmi, elmi-kütləvi məqalələrlə çıxış edir.

Xəlilovun elmi fəaliyyəti çoxsahəli, geniş və əhatəlidir. Onun 400-dən çox elmi, elmi-publisistik əsəri çap edilmişdir. Bunlardan 45-i monoqrafiya, dərslik və dərs vəsaitidir.

Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Yazıçılar Birliyindəki İrs komissiyasının üzvü idi. 2003-2004-cü illərdə Ali Attestasiya Komissiyasının Filologiya ixtisası üzrə Ekspert şurasının üzvü olmuşdur.

2006-cı ildə Azərbaycanda təhsil sisteminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Buludxan Xəlilov 2001-ci ildə İlin alimi nominasiyasının, 2003-cü ildə Vektor Beynəlxalq Elm Mərkəzi Mükafat Komissiyasının qərarı ilə Azərbaycanın gənc alimləri Beynəlxalq layihəsinin qalibi olmuşdur. O, 2004-cü ildə Azad Qələmlər Cəmiyyəti tərəfindən Azərbaycan dili, ədəbiyyatı və türkologiya elmlərinin tədqiqi-təbliği sahəsindəki xidmətlərinə görə Qızıl qələm fəxri mükafatı laureatı seçilmiş, 2006-cı ildə XXI əsrin ziyalısı adına layiq görülmüşdür. 2009-cu ildə türk ədəbiyyatına xidmətləri ilə bağlı olaraq Türkiyə Cümhuriyyətinin KIBATEK Akademik ÜYESİ diplomunu almış, KIBATEK Akademik Üyesi seçilmişdir. 2006-cı ildə VII Uluslararası Türk dili Qurultayında məruzə ilə çıxış etmişdir.

Buludxan Xəlilov iki dəfə 1999-cu və 2004-cü illərdə Nəsimi rayonu bələdiyyəsinə üzv seçilmiş, Sosial məsələlər daimi komissiyasına sədrlik etmişdir.

2007-2008-ci tədris illərində ADPU-da "İlin müəllimi", 2011-ci və 2013-cü illərdə "İlin alimi" müsabiqəsinin qalibi olmuşdur. 2011-ci ildən Prezident təqaüdçüsüdür (Yazıçılar Birliyinin üzvü kimi). 2011-ci ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqı tərəfindən "Xalqın nüfuzlu ziyalısı" mükafatına layiq görülmüşdür. 2011-ci ildən Dilçilik ixtisası üzrə Koordinasiya Şurasının, 2013-cü ildən AAK-ın Filologiya ixtisası üzrə Ekspert Şurasının üzvüdür. 2014-cü ildə Dilçilik ixtisası üzrə Koordinasiya Şurasının sədrinin müavini kimi fəaliyyət göstərmişdir. 2013-cü ildən ömrünün sonuna qədər Türkologiya jurnalının Azərbaycan dili, terminologiya üzrə sahə redaktoru olmuşdur.

2015-ci ilin aprel ayında Türk dünyası araşdırmaları uluslararası elmlər akademiyasının akademiki seçilib, 2015-ci ilin 19 mayında "Beynəlxalq Rəsul Rza" mükafatına layiq görülüb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 8 dekabr 2015-ci il tarixli, 450 №li sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının yeni tərkib komissiyasına üzv seçilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 17 fevral 2016-cı il tarixli 4/14 nömrəli qərarı ilə AMEA-nın "Türkologiya" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

2017-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun və Dünya Gənc Türk Yazarlar Birliyinin təşkilatçılığı ilə "Bakıdan türk dünyasına" adlı layihə çərçivəsində tədbirlərə verdiyi dəstəyə görə "Onur bəlgəsi" ilə, azərbaycanlı şair Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş tədbirdə TÜRKSOY Genel Sekreteri Düsen Kaseinov tərəfindən "Molla Pənah Vaqif" medalı ilə təltif edilmişdir. 2018-ci ildə ADPU-nun Filologiya fakültəsinin inkişafında xidmətlərinə görə rektorluq tərəfindən fəxri fərmanla təltif edilmişdir.

O, "Əməkdar müəllim" fəxri adı ilə, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı və bir sıra digər fəxri fərmanlar ilə (1973, 2008) təltif edilmiş, həmçinin dəfələrlə ADPU-nun rəhbərliyinin fəxri fərmanlarına layiq görülmüşdür.

## Əsərləri

**Azərbaycan dilində təkhecalı fellərin əsasında duran ilkin köklərin fonosemantik inkişafı.** Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1995, 80 s.

**Azərbaycan dilində ikihecalı fellərin fonosemantik inkişafı.** Bakı: APİ nəşri, 1996, 96 səh.

**Fellərin ilkin kökləri.** Bakı: APİ nəşri, 1998, 220 s.

**Birinci Beynəlxalq Türkoloji qurultay.** Bakı: "Elm", 1999, 186 s.

**Müasir Azərbaycan dilinin morfologiyası (I hissə).** Bakı: "Elm", 2000, 280 s.

**Türkologiyanın intibah dövrü (XIX əsrin sonu XX əsrin 30-cu illəri).** Bakı: Adiloğlu, 2001, 172 s.

**Müasir Azərbaycan dilinin morfologiyası (II hissə).** Bakı: "Elm", 2003, 310 s.

**Azərbaycan dili (VI-VII siniflər üçün).** Bakı: "Təhsil", 2003, 250 s.

**Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya.** Bakı: 2007, 260 s.

**Azərbaycan dili: dünən, bu gün.** Bakı: 2004, 370 s.

**Türkologiyaya giriş.** Bakı: Elm, 2006, 220 s.

**Müasir Azərbaycan dilinin leksikologiyası.** Bakı: 2008, 270 s.

**Türkün hikmət xəzinəsi: Xoca Əhməd Yəsəvi.** Bakı: 2010, 180 s.

**Dil, söz çələngi.** Bakı: Elm və təhsil, 2012.- 182 s.

**224 qədim türk sözü.** Bakı: 2013, 160 s.

**Dil, ədəbiyyat, mədəniyyət**. Bakı: Bakı Çap evi, 2013.- 484 s.
**Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfepiya** Bakı: [Bakı Çap Evi], 2013.- 310 s.
**Bəxtiyar Vahabzadənin dilçilik görüşləri.** Bakı: Bakı Çap evi, 2014. 244 s.
**İsmayıl Şıxlı : müəllim haqqında müəllim.** Bakı: Bakı Çap evi, 2015.- 108 s.
**Dil mədəniyyəti.** Bakı Papirus NP. 2016. 190 s.
**Əbədiyaşar ədəbiyyat.** Bakı: Adiloğlu, 2016.- 202 s.
**Müasir Azərbaycan dilinin morfologiyası.** Bakı: Papirus NP, 2016. 352 s.
**Türkologiyanın tarixi: XX əsrin 20-30-cu illəri.** Bakı :Papirus NP, 2016.
**Zamanın sınağından keçənlər...** Bakı: Adiloğlu, 2016.- 252 s.
**Nitq mədəniyyəti.** Bakı, 2017.- 107 s.
**Azərbaycan dilində feil.** Bakı: Adiloğlu, 2018.- 224 s. 236 s.
**Azərbaycan ədəbiyyatında erməni xisləti.** Bakı:Adiloğlu, 2018.- 152 s.
**Müasir Azərbaycan dili : Sintaksis** Bakı: Adiloğlu, 2018.- 428s.
**Dilin möcüzəli imkanları.** Bakı: [Adiloğlu], 2019.- 176 s.
**Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.** Bakı: [Adiloğlu], 2020, 470 s.